| | |
|---|---|
| Hənifə Əliskəndər oğlu Ələsgərov<br>1912-1991 |  |

Hənifə Ələsgərov 1912-ci il yanvar ayının 1-də müəllim ailəsində anadan olmuşdur. O, 1936-cı ildə Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsini bitirərək memar sənətinə yiyələnmişdir.
Hənifə Ələsgərov 1939-cu ildə Dövlət Layihə İnstitutunda Şəhərlərin planlaşdırma şöbəsinə rəhbər təyin olunmuşdu.
Zaqatala rayonunun baş planının layihələşdirilməsi işində əsas yer tutmuşdur. O, keçmiş Azərbaycan SSR Nazirlər Soveti yanında memarlıq işləri üzrə birinci müdir müavini işləmişdir. 1948-1958-ci illərdə Dövlət Tikinti və Memarlıq abidələri, şəhərsalma problemləri və mühafizəsi məsələlərinə rəhbərlik etmişdi.
1956-cı ildə Gəncədə toxuculuq kombinatının inzibati binası, 1960-cı ildə kurort şəhəri olan Şuşada mehmanxana və pansionat, 1961-ci ildə Bilgəhdə müalicə məişət korpusu, 1966-cı ildə Bakıda Rus Dili və Ədəbiyyatı İnstitutunun tədris korpusunun tikilməsində iştirak etmişdir.
1972-ci ildə SSRİ və 1976-cı ildə Azərbaycan SSR Dövlət mükafatları laureatı adına layiq görülmüşdür. 1-ci dərəcəli Vətən müharibəsi ordeni, "Qırmızı Ulduz", "Şərəf nişanı" ordenləri və medallarla təltif edilmişdir.
Hənifə Ələsgərovun yaradıcılığında şəhərsalma üzrə maraqlı işlərdən biri də Bakıdakı Nizami meydanının yenidən qurulması idi.
1961-ci ildə keçmiş Lenin meydanının, (indiki Azadlıq meydanı) yenidən qurulması üçün elan edilmiş qapalı müsabiqədə H.Ələsgərovun başçılığı altında olan kollektivin layihəsinimn 3-cü mükafat alması müəllifin yaradıcılıq nailiyyəti idi.
Hənifə Ələsgərovun 1965-ci ildən Bakı şəhərinin Baş Planlaşdırma idarəsi rəhbəri vəzifəsində fəaliyyəti, tezliklə şəhərin yeni baş planının texniki iqtisadi əsasları üzərində işə başlanılması ilə əlamətdar olmuşdur. O, 1973-cü ilə qədər Bakı şəhərinin Baş memarı vəzifəsində işləmişdir.
Bakı Metropoliteninin "Qara Qarayev" stansiyasının (1972, Ələsgər Hüseynovla) layihəsini vermişdir.
Hənifə Ələsgərov 50-dən çox məqalə, kitab və kitabçaların müəllifidir.
Azərbaycanın XX əsr memarlığının inkişafında və xüsusilə də şəhərsalma tarixində mühüm yeri olan görkəmli memar Ələsgərov Hənifə Əliskəndər oğlu 1991-ci ildə 79 yaşında dünyasını dəyişmişdir.
Bakı şəhərinin mərkəzi küçələrindən biri onun adını daşıyır.